# VƏTƏNDƏN VƏTƏNƏ MÜHACİRƏT EDƏN ŞAİR



02 may 2025-ci il tarixində Neftçala rayonu Q.Nuralıyev adına Xol Qaraqaşlı kənd tam orta ümumtəhsil məktəbində görkəmli Azərbaycan şairi Əli Tudənin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Ruhəngiz Nəcəfova yığıncağın məramını açıqlamış, sonra Dövlət Himni səsləndirilmiş, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan Şöbəsinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, Güney Azərbaycan İcmasının təsisçisi və sədri Sayman Aruz, Azərbaycan Yazıçılar Birliyinin Muğan Bölməsinin sədri,yazıçı-publisist İbrahimov Nəbi, Azərbaycan Coğrafiya Cəmiyyətinin həqiqi üzvü, tədqiqatçı- müəllim Nadir Rüstəmov, Neftçala RİH-nin Başçısının Xol Qaraqaşlı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəsinin vəzifələrini müvəqqəti icra edən Hilal Əhmədov, Neftçala RİH-nin Başçısının Xol Qarabucaq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəsi Əsgərov Gündüz, məktəb direktorları, məktəbin şəhid məzunlarının valideynləri, müəllim və şagird kollektivi iştirak etmişlər.

Tədbirin aparıcısı R.Nəcəfova "Kimdir Əli Tudə" sualını cavablandırmaq üçün şairin həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermişdir.O, Əli Tudənin əslən Ərdəbilin Canaxbulaq kəndindən olan valideynlərinin Şimali Azərbaycana köçməsini, şairin 1924-cü il yanvarın 31-də Bakıda anadan olmasını vurğulamışdır. Qeyd etmişdir ki, Əli 1 yaşında olarkən atasını, 5 yaşında olarkən isə anasını itirmiş və o, nənəsi Qəribin himayəsində böyümüşdür.Bakıdakı 150 saylı orta məktəbdə oxuduğu illərdə Bakı Pionerlər Sarayının nəzdində şair Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvlərindən biri olmuşdur. Artıq 13 yaşında ikən ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol qəzetlərində çap olunmuş, radioda səsləndirilmişdir.

1938-ci ildə repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilir. 1940-cı illərdə Cənubi Azərbaycanda başlanan azadlıq hərəkatına qoşulur, silahı və qələmi ilə mübarizə aparır.

Azərbaycan Milli Hökuməti süquta uğradıldıqdan sonra çap ərəfəsində olan şeirlər kitabı, mətbəədə yandırılır. Şah Əli Tudənin tutulduğu anda məhkəməsiz öldürülməsi haqqında fərman verir. Təbrizi tərk etməyə məcbur qalan şair 1946-cı il dekabrın 12-də sərhədi keçərkən "Mən nə gətirdim" şeirini yazmış və bu şeir bütün mühacirlərin həyat manifestinə çevrilmişdir.

Tədbirdə çıxış edənlər Əli Tudənin, çətin, məşəqqətli, lakin mənalı, mübariz həyat yolu haqqında danışmış, onun ədəbiyyatımızın inkişafında xidmətlərindən söz açmışlar.Sonda AYB-nin Cənubi Azərbaycan Şöbəsinin rəhbəri Sayman Aruz tədbirin təşkilində fəal iştirakına və səmərəli yaradıcılıq uğurlarına görə məktəbin direktoru R.Nəcəfovaya şair Əli Tudənin 100 illiyinə həsr olunmuş Fəxri Fərmanı və yubiley medalını təqdim etmişdir.

Məktəblilərin ifasında Ə.Tudənin şeirlərindən nümunələrin söylənilməsi, vətənpərvər ruhlu mahnıların səslənməsi, "Azərbaycan" mahnısının sədaları altında alqış səsləri tədbir iştirakçılarına xoş anlar bəxş etmişdir.

**_Nəbi İBRAHİMLİ ,_**
**_Azərbaycan Yazıçılar Birliyinin Muğan Bölməsinin sədri, yazıçı-publisist_**